

# Milyonum da olsa, bu işi sona çatdıracam...

## Ziya Gözəlov: “Uşaq yeriməyi yıxıla-yıxıla öyrəndiyi kimi, mən də texnikanı xarab edə-edə öyrənirəm”

**15 yaşında iki ixtiraya imza atıb. Yeniyetməlik dövründə ”Sabahın alimi” adına layiq görülüb. Yaşıdları kompyuterdə oyunlar oynayarkən, vaxtlarının çoxunu internet klublarda keçirərkən, o, ”kiçik” beynilə yeni proqram kəşf etmək üçün dəridən-qabıqdan çıxıb. Qeyri-adi istedada malik bu yeniyetmə İKT-də dönüş yaratmağı qarşısına məqsəd qoyub.**

**Müsahibimiz 16 yaşlı ixtiraçı Ziya Gözəlovdur. Ziya 1998-ci ildə Cəlilabadda anadan olub. Hazırda Bakıdakı 245 saylı tam orta məktəbin 11-ci sinif şagirdidir.**

**- Ziya, texnologiyaya maraq səndə nə vaxtdan yarandı? Özündə bu istedadı nə zaman kəşf etdin?**

- Mənim oxumağa, təhsil almağa marağım yox idi. Qiymətlərim ”5” olsa da, oxumaqdan zövq almamışam. Dərslərimi valideynlərimi və müəllimlərimi məmnun etmək üçün oxuyuram. Amma sevdiyim sahə texnologiyadır.Uşaqlıqdan texnologiya ilə maraqlanır, əsasən informatika kitabını həvəslə oxuyurdum. Prinsipial uşaq olduğum üçün hər zaman məqsədlərim olub və onlara çatmağa can atmışam. Yaşıdlarım kimi oyun oynamırdım. Özüməməxsus işlərə imza atmaq istəyirdim. Planlarım yaşımdan böyük idi. Nəticədə yaşım az olsa da, məqsədimə çatdım və kəşf etdim. İnanıram ki, texnologiyada da dönüş yarada biləcəyəm.

**- Kompyuterlə ilk tanışlığın nə vaxt olub?**

- 5-ci sinfi bitirib 6-cı sinfə keçirdim.Yay vaxtı idi. Atam gəmi kapitanı olduğu üçün gecə saat 4-də dənizdən gəldi. Gələndə özü ilə kompyuter alıb gətirmişdi. İndi ilə müqayisədə çox köhnə kompyuter idi. Mənim oyun oynamağa marağım yox idi, daha çox kompyuterin proqramları, işləmə prinsipi ilə maraqlanırdım. Elə ilk dəfədən kompyuteri ”eşələdim”, xarab etdim. Nə qədər düzəltməyə çalışdım, düzəlmədi. Ustaya aparmaq məcburiyyətində qaldım. Bu hal bir neçə dəfə baş verdi. Sonda kompyuteri apardığım usta dedi ki, ”sən də yazıqsan, kompyuterin də. Valideynlərinə de, səndən bu kompyuteri alsınlar”. Kompyuteri xarab edə-edə proqramlaşmanı öyrəndim. Təbii, istəmədən xarab edirdim. Sadəcə, bu, nəyisə etmək istəyimdən irəli gəlirdi.

**- Mətbuatda səni bir dəfəyə iki ixtira edən yeniyetmə kimi tanıyırlar. Bu ixtiralardan danışardın**

- Bizim evə ilk dəfə kompyuter gələndə kompyuterdə antivirusun olduğunu öyrəndim. Antivirusu görəndən sonra fikirləşdim ki, ”nə olardı, mənim də bir antivirusum olardı...”. Bunu düzəltmək, demək olar ki, Azərbaycanda qeyri-mümkündür. Çünki bizdə hər hansı virusları yoxlamaq üçün virus laboratoriyası yoxdur. Amma buna baxmayaraq, mən kompyuterin üzərində bunu öyrənməyə çalışırdım. Bu zaman başıma çox hadisə gəlib. Kompyuterin durduğu yerdə partladığı an da olub, düymələrinin qopub düşdüyü an da... Sırf antivirus düzəltmək üçün, demək olar ki, hər şey etdim. 13 gün ərzində həmin antivirusun loqosunu hazır edə bildim. İndi həmin loqonun hazırlanması fotoşopla cəmi iki dəqiqənizi ala bilər. Ondan sonra antivirusun özünü yaratdım. Bunu proqramlaşdırma dillərinin köməyi ilə etdim. Hesablamalara görə, dünyada hər 1 saatda 7 troyan yaradılır. Mənim hazırladığım proqram kompyuterdə troyan növündə olan virusları taparaq silir. Bu skannerin əsas xüsusiyyəti 2 gündən bir yenilənməsidir. Troyanlardan ən təhlükəliləri seçilərək skannerə əlavə olunur. Biz hər dəfə kompyuteri skan etdikdə, troyanlar skanner tərəfindən tapılaraq yenidən başlatmadan maksimum 7-8 dəqiqə ərzində silinir.

İkinci kəşfimə gəlincə, ”firelon” proqramını kəşf etdikdən sonra tibb və sağlamlıq üzrə təbii üsulla ”Firelon” adlı dərman pereparatı hazırladım. Tibb sahəsi mənim üçün hobbidir. Düşündüm ki, bir ixtiraçı kimi hansı kodun hansı virusu yox etdiyini bilirəmsə, dəridəki xəstəliklərin də hansı maddələri məhv edəcəyini öyrənə bilərəm. Təcrübəni öz üzərimdə keçdiyim üçün səhhətimdə müəyyən xəstəliklər yarandı, amma nəticədə dərmanı ərsəyə gətirə bildim. Təbii üsulla meyvələrdən götürdüyüm maddələrlə kəşf etdiyim dərman dəridəki ləkələr və sızanaqları aradan qaldırır.

**- Bəs niyə məhz dəri xəstəlikləri?**

- Yay vaxtlarında dərimdəki sızanaqlar məni əsəbləşdirirdi. Mən də onları yox etmək üçün bir şey tapmalı idim və tapdım. Öz üzərimdə təcrübədən keçirdim. Dəfələrlə dərimi yandırdım. Amma sonda sızanaqları yox edə bildim.

**- İxtiralarının ziyanını da çəkirsən. Heç ailən buna qarşı çıxır?**

- Mənim ixtiraçı olduğumu ailəm keçən il bilib. Onlar bilsəydilər ki, kompyuter mənim ixtiraçılığıma görə xarab olub, yəqin ki, mənə kompyuter verməzdilər. Mən hər şeyi vurub sındırdığıma görə deyinirdilər. Hətta dərmanı hazırlayanda özümə cismən zərər verdiyimi bilsəydilər, o zaman da qarşı çıxardılar.

**- Ailəndə səndən başqa texnologiya ilə məşğul olan varmı?**

- Xeyr, bizim ailəmizdə hər kəs kitab-dəftərlə məşğuldur. Onlar ancaq yazır, oxuyur. Amma məndə belə deyil. Mən yalnız texnologiya ilə məşğul oluram. Yazmaq, oxumaq mənə maraqlı deyil. Bizim ailəmizdə elə bir insan yoxdur ki, mən onların vasitəsi ilə qabağa gedim. Atam sadə kapitandır. Bu yolu mən özbaşıma getmişəm. Başqa heç bir köməyim olmayıb. Ailəm ilk dəfə bacarıqlarımdan xəbər tutanda mənə şübhə ilə yanaşdılar. Dedilər ki, ”oxumaq hara, sən hara? Sənin elmə marağın yoxdur, mümkün deyil ki, belə bir işə girişəsən”. Onlara izah etdim ki, elm başqadır, ixtiraçılıq başqa. Bunları qarışdırmaq olmaz. Mən ”Sabahın alimi” seçildikdən sonra valideynlərim çox təəccüblənmişdi.

**- Bəs ətrafın - dost-tanışlar bunu necə qarşıladı?**

- Uşaqlıqdan kiber müharibənin içində idim. Sinif yoldaşlarım bunu bilirdilər. Parolların sındırılmasını öyrənirdim. Bir uşağın parol ”sındırması”, təbii ki, qeyri-mümkündür. Amma 6-cı sinifdə ilk dəfə kompyuter görəndə özüm öz saytımı yaradırdım və öz saytımı vururdum. Yaratmağı öyrəndikdən sonra dağıtmağı da öyrəndim. Olmayan proqramların istehsalına başladım. Düzdür, bu sahə ilə məşğul deyiləm, parol ”sındırmıram”, amma məlumatım kifayət qədərdir.

**- Bir az da enerjinin blutuzla ötürülməsi layihəsindən danışardın...**

- Bir dəfə telefonumda enerji az idi. Dostum dedi ki, kaş enerjini bir-birimizə ötürə bilərdik. Ağlıma batdı. Hazırda bunun üzərində iş gedir, bu, bir az çətin məsələdir və tək işləyirəm. Demək olar, bədənimdə yandırmadığım yer qalmayıb. Enerji onsuz da dalğalar vasitəsi ilə ötürülür. Amma mənə blutuzla enerji ötürmək lazımdır ki, insanların telefonlarının enerjisi bitəndə bir-birilərinə göndərə bilsinlər. İndi onun üzərində işləyirəm. Xarab etdiyim cihazları bir yerə toplasaq, qiyməti 4-5 min manat edər. Uşaq yeriməyi yıxıla-yıxıla öyrəndiyi kimi, mən də bu sahəni texnikanı xarab edə-edə öyrənirəm. Enerjinin blutuzla ötürülməsi layihəsi üzərində iki aydır işləyirəm. Digər layihə isə storeaz.net- dir. Bu, onlayn şopinq layihəsidir. Azərbaycan daxilindəki mağazaların bir yerə yığışması ilə bağlı olacaq. Ödəmələr nəğd və masterkartla ediləcək. Düzdür, işim bir az uzun çəkəcək, amma storeaz.net-ə daha çox üstünlük verirəm.

**- Gələcək planların necədir?**

- Uşaqlıqdakı arzumu hələ də yerinə yetirə bilməmişəm. Həmişə istəmişəm antivirusum olsun. Düzdür, antivirusum var. Amma bunu ortalığa çıxarmaq mənim üçün hələ də çətindir. Maykrasoft və ”Maykrasoft Azərbaycan”ın yanında bu qeyri-mümkün kimi görünür, amma bunu edəcəm və bu arzuma çatacam. Bundan sonra mənim milyonum da olsa, mən bu işi sona çatdıracam, antivirusumu dünyada tanıdacam.





**Aygün ƏZİZ**